

ELMİRA ƏŞURBƏYOVA

***Dağıstan Respublikasının Xiv rayonunun Yuxarı Yaraq kəndində anadan olub.***

***Filologiya üzrə elmlər namizədidir. O, Rusiya Federasiyası Yazıçılar İttifaqının, Beynəlxalq yazıçılar və publisistlər assosiasiyasının üzvüdür. Şeirləri tabasaran ədəbiyyatı üzrə dərsliklərə daxildir. Dağıstanda yaşayan azərbaycan yazarlarının əsərlərini tabasaran dilinə çevirir. On kitab müəllifi Elmira Əşurbəyova Dərbənddə yaşayır.***

## *SEVGİ ŞEİRİ*

Nə yaxşı ki məni belə sevirsən,
Nə yaxşı ki, səni də mən sevmişəm.
Baxışımız qəlbimizdə süzülür,
Nə yaxşı ki, məni belə sevmisən.

Bu böyük günahladı dünyada,
İki sevən ürək birgə döyünür,
Nə yaxşı ki, səni sevə bilmişəm,
Nə yaxşı ki, məni belə sevmisən.

Sənə olan məhəbbətim təmizdir,
Bu sevgimiz mənə doğma, əzizdir.
Bu sevgimiz bir çağlayan dənizdir,
Nə yaxşı ki, səni sevə bilmişəm.

***Tərcümə etdi: Zeynəb Dərbəndli***

700 tıl

## *QƏRİBLİK*

Bu yalçın qayalar, bu qərib dağlar,
Eşq dolu qəlbimi soyuda bilməz.
Bir zaman qar kimi əriyən çağlar,
Payız küləyitək qayıda bilməz.

Bu yurdun qucağı deyildir vətən,
Məhəbbət gurlasın, çağlaya bilsin.
Elə bir doğmalıq görmürəm ki, mən,
Qəlbimi bu yerə bağlaya bilsin.

## *DƏRBƏND SƏHƏRİ*

Xalçatək toxuyur şəhəri quşlar,
Zülmətin pərdəsi çəkilir göyə.
Bu işdə bəlkə də Tanrı əli var,
Dərbənd davamlıdır qəmə, qüssəyə.

Şəhər qucağında uyuyur Xəzər,
Saçını darayır günəş səmada.
Dalğalar pillədir, ayna pillələr,
Saxlayır günəşi qoca dünyada.

Tənha küçələrdə, tənha kölgələr,
Tək bir insanların dalınca gəzir.
Maşının səsindən diksinir şəhər,
Dalğalar tələsir, yenə tələsir.

Gecə uzaqdadır, açılır düyün,
Yetişir şəhərə yenicə bir gün.

***Çevirəni: Fəxrəddin Qəribsəs***

## *MÜASİR LAYLA*

Lay-lay, bala, yat oğlum,
Hər arzuna çat oğlum.
Qorxma qurddan, ilbizdən,
Heyvanlar qorxur bizdən.

Lay-lay balam, sakit yat,
Əjdahanı unut, at.
Onun qorxusu yoxdur,
Gözəl yuxular çoxdur.

Bu gün qorxulu heyvan,
Kim ola bilər - insan!
Qarşına çıxsa alçaq,
Səni kim qoruyacaq?

***Çevirəni: Təhmiraz İmamov***



19 iyirl oktdir